# MÜRSƏLOV VÜQAR MİRƏZBƏR OĞLU



Mürsəlov Vüqar 10 mart 1963-cü ildə Cəlilabad rayonunun Göytəpə şəhərində dünyaya göz açmışdır. 1980-ci ildə burada 1 saylı orta məktəbi bitirdikdən sonra 67 saylı Bakı texniki-peşə məktəbində, sonra Bakı Politexnik Texnikumunu əla qiymətlərlə başa vuraraq Belorusiyanın Brest şəhərində hərbi xidmətə başlayır. O, 1984-cü ildə ordudan Qvardiya baş çavuşu, tankçı kimi tərxis olunur. O, Göytəpə Avtomobil Təmiri Zavodunda öz ixtisası üzrə əmək fəaliyyətinə başlayır. V.Mürsəlov 1991-ci ildə Xüsusi Təyinatlı Polis Dəstəsinə yazılır və torpaqlarımızın müdafiəsinə qalxır. Füzuli, Xanlar, Ağdam, Laçın, Şuşa, Goranboy, Ağdərədə gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. 9 iyun 1992-ci ildə ermənilər Tərtər rayonunun Cəmilli kəndi istiqamətindən hücuma keçmişdilər. Bu döyüşdə V.Mürsəlov qəfil snayper gülləsi ilə həlak oldu. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Mürsəlov Vüqar Mirəzbər oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. 1993-cü ildən Göytəpə şəhərindəki 1 saylı tam orta məktəbə Milli Qəhrəmanın adını daşıyır. Şəhərin mərkəzində büstü qoyulmuşdur. Tərtər, Göytəpə, Cəlilabad şəhərlərində adına küçə vardır.